# Qadın adının gözəlliyi

Qadın Allahın Yer üzünə bəxş etdiyi ən gözəl varlıqdır. Qadın bu həyatın isti nəfəsi, qadınlar günəşin şəfəqləridir. Qadın kainatın özəlidir, həyatın cəmiyyətin özəyidir. Qadının elə gözəl tituları var ki... ən başlıcası Anadır! Allahın ən müqəddəs adı, varlığı Ana! Cəmiyyəti cəmiyyət etmək üçün dünyaya insan bəxş edən ana! Həyata gözəllik rəmzi olan insanlara ünsiyyət, həyata davam üçün sirdaş, ömür yoldaşı... Qadın insanlığın baş tacı, onlara can bağı olan bacıdır... Qadın dünyanın gözəllik mücəssəməsi, paklık simvolu, sevgi məhəbbət qaynağı, ülvilik nişanəsi qız övladıdır! Ən başlıcası qadın həyatın özüdür.

İnsanda olan bütün xarakterik cəhətlər onun nəfəsinin hərarətindən yaranır. Kaş ki, o hərarət həyatın, yaşam tərzinin mənfi auraları ilə rastlaşmaya... Həyat isə yaranışdan mübarizələrlə doludur. Bu mübarizələrə sinə gərən hər bir qadın və onun həyata bəxş etdiyi insan kamilləşir və ətraf mühitin mənfiliklərini, insanlığa zidd olan nə varsa onlardan ağılla, sağlam düşüncə ilə uzaqlaşır və yaş üstünə yaş gəldikcə mükəmməlləşir.

Vətənpərvər, milli-mənəviyyatca zəngin olan iki xanımı oxucularımıza təqdim etmək istərdik. Hər ikisi özünə məxsus istedadı ilə insanlar arasında artıq tanınır. Biri qəlbindən axıb gələn sevgi və hörməti sözlərə çevrir, biri isə barmaqları ilə düşündüklərini gözəlliyə çevirir.

Vətənpərvərlik həmişə mənim bir qələm əhli kimi əsas mövzum olmuşdur. Vətənpərvər insanları daima yazı qəhrəmanım seçmişəm. Məhz bu hissin təbliğatçısıdır Şəhla Xəlilqızı. Həyatda zənginliyi mənəviyyatının varlığında, vicdanın saflığında görər, ömrünü məhz bu amillərə həsr edər. Onun fikrincə dünyanın ən böyük sərvəti sabah üçün bir iz qoymaq, sözlərində, nəğmələrində yaşamaqdır. Vətəninin sevgisi ilə söz dünyasına ayaq basdı, torpaq və xalq uğrunda öz canını qurban verən vətən fədailərini qələmə aldı, kitablara köçürdü. Hər bir eloğlu haqqında üreyindən gələn sözləri dili ilə insanlara bəxş etdi. Hər bir acılı şəhid ailəsinin, hər bir sağlamlığını itirən qazinin, hər bir acılı insanın acısına, sevincli insanların sevincinə ortaq oldu.

**Şəhla Xəlilqızı** 1968-ci il iyunun 15-də Yeni Dızaxlı kəndində anadan olub. Orta təhsilini başa vurub, Qəbələ Texniki Peşə məktəbində "Məclis və mərasimlər" fakultəsində menecer peşəsinə yiyələnmişdir. Hələ orta məktəbdə oxuyarkən qəlbindən gələn sözləri nəzmə çəkər, ədəbiyyata böyük maraq göstərər, el şənliklərində öz ürək sözlərini seriyyətlə söyləyərdi. Onun şerləri müxtəlif qəzet və jurnallarda dərc olunmuşdur; "Yurd", "Xəzan", "Ziyalı", "Qəbələnin Sədası", "Günəşin nuru", "Mən Azərbaycanlıyam" jurnallarında, "Ədəbiyyat", "Qəbələ", "Qanun keşiyində", "Paralel", "Oğuz yurdu" və s. qəzetlər məhz ona doğma olan mətbuatlardır. O, 2018-ci ildən "Qəbələnin səsi" ədəbi yazarlar birliyinin rəhbəridir. Şəhla üç kitab müəllifidir; "Getmə amandır", "Vətən oğulları", "Vətənləşən oğullar". Həmçinin onun vətənpərvərlik, mənəvi zənginlik hissli şerləri müxtəlif illərdə nəşr olunan bir neçə almanaxda da dərc olunmuşdur.



Vətən fədailərinin ailələrinə, əzizlərinə yaxın olmaq yalnız onlarla şəkil çəkdirmək deyil, onları insanlara tanıtmaq, gələcək nəsillərin tanıması üçün daha əhəmiyyətli, səmərəli addım atmaqdır. Bu isə sənəd kimi qorunub saxlanılan mətbu orqanlarıdır, kitablardır və xalqın yaddaşında qalan nəğməli sətirlərdir. Vətənpərvər ruhlu Şəhla Xəlilqızı da məhz bu yolu seçmişdir. Bu yolda aldığı mükafatlar isə onun üçün önəmli deyil, ən başlıcası onu və onun yazdıqlarını sevən, imzası ilə qazandığı hörmətdir. Ləyaqətli xanım, gözəl ana və qəbəlilərin, imzasını tanıyanların sevgisini qazanan Şəhla Xəlilqızına yaradıcılıq uğurları arzulayırıq!

* * *

Qəlbin gözəlliyi öncə simaya qonaq, sonra isə əmələ, işə. Dilbər xanıma xas olan bu xüsusiyyət məhz tanıyanlara onu sevdirir. Qəlbi arzularla dolu olur hər kəsin, Dilbərin də. Yaşadığı mühit, doğulduğu ailə insanın gələcəkdə necə formalaşmasında başlıca amildir. Hələ orta məktəbdə oxuyarkən təbiətin bəxş etdiyi gözəllikləri yaşatmaq, solmaq istəyən gözəlliyə belə can vermək onun hobbisi idi. Ali təhsil almaq istəyini həyata keçirə bilməsə də, öz hobbisi yaşatdı və hər kəsi hazırladığı əl işləri ilə heyran etdi. Qadın özü gözəllik təcəssümüdür.- Lakin bu gözəlliyə can verən, onu daha da təkmilləşdirən o qadının əməlləridir.

**Dilbər Qurbanova** 1977-ci il yanvarın 19-da Qəbələ şəhərində doğulmuşdur. Şəhər 1 saylı məktəbində orta təhsil almışdır. Hələ kiçik yaşlarından toxuculuq, rəssamlıq, bəzək və maraqlı suvenirlərin hazırlanması ilə məşğul olardı. O əl işlərini muzeyə təqdim etmiş və illər öncə qəzetimizdə bu haqda məlumat, kiçik zarisovka da dərc olunmuşdur.



Onun hazırladığı əl işləri onu tanıyanların nəzər-diqqətini cəlb etdiyi üçün o, bu əl işlərini rayon mədəniyyət mərkəzində təşkil olunan sərgidə nümayiş etdirmək üçün sərgiyə dəvət olundu.

2024-cü il fevralın 20-də rayon mədəniyyət mərkəzində keçirilən sərgidə Dilbər Qurbanovanın da əl işləri nümayiş etdirildi. Böyük maraqla qarşılanan əl işləri mükafatlandırıldı. Dilbər Qurbanova martın 15-də keçiriləcək növbəti sərgiyə dəvət aldı. Bu sərgidə isə o, hazırladığı əl işlərinə görə I yeri qazandı.

Bu Dilbərin böyük uğuru və arzularının gerçəkləşməsinə vurulan bir "möhür" sayılırdı. Həm də illərdir qəlbində yaşatdığı arzusuna yol açmaq üçün bir yaşıl işıq idi.

Dilbər Qurbanovanın əl işləri onun gözəllik dünyasının həqiqi təcəssümü idi. O, bu əl işlərində öz daxili saflığını, vətənpərvərliyini, milli-mənəvi gözəlliyini əks etdirmişdi və etdirir.

Dilbər Qurbanova ailəlidir. Ömür-gün yoldaşı Asif Qurbanov da zəhmətkeş, sadə peşə adamıdır.Onların övladları Nigar və Rəşid isə arzularını həyata keçirən, aldıqları ailə tərbiyəsindən bəhrələnən gənclərdir. Hər ikisi layiqli övlad kimi yetişmişdir. Ailənin qız övladı Nigar Qurbanova orta məktəbi 2016-cı ildə qızıl medalla bitirərək 664 bal göstəricisi ilə Bakı Dövlət Universitetinə daxil olmuş, sonralar həmçinin magistr təhsili də almışdır. Hüquqşünas ixtisaslı Nigar hazırda İqtisadiyyat Nazirliyinin Struktur qurumunda çalışır.

Oğul övladları Rəşid Qurbanov isə orta məktəbi bitirəndən sonra Bakı şəhər Qida Sənayesi Kollecinə daxil olmuş və müvəffəqiyyətlə bitirmişdir. 2002-ci il təvəllüdlü Rəşid 44 günlük Vətən Müharibəsində iştirak etmiş, Zəngilan və Cəbrayıl rayonlarının azad olunması uğrunda döyüşmüşdür. O, döyüşdüyü ərazilərin azad olunması uğrunda medallarla, həmçinin "Vətən Müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuşdur.

Qadın həqiqətən böyük qüvvədir. Bu qüvvə vətənpərvərlik ruhu ilə xariqələr yaradır, ən başlıcası aid olduğu xalqa, Vətənə vətənpərvər övladlar böyüdür, mənəvi zənginliyi təbliğ edir - əməllərilə. Məhz belə qadınlar Azərbaycanmızın, ölkəmizin ən qiymətli varlıqlarıdır.

**BİBİXANIM.**

# Şəhid ailələrinə səfər edilmişdir



Qızıl Aypara Cəmiyyətinin Qəbələ Bölməsinin və Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin əməkdaşları tərəfindən 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə şəhid ailələri ziyarət edilib. Görüş zamanı nümayəndələr şəhid analarını bayram münasibəti ilə təbrik edib, onlara hədiyyələr təqdim ediblər. Ziyarət olunan ailələrin üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Sağlamlığın ən təbii vasitəsi

Hər bir insan ayağı yer tutandan öz arzuları uğrunda mübarizə aparmaq iddiasında olur. Hələ körpəlikdən bu iddialar xoş arzular kimi çoxalır və ünvanını dəyişir. Yeni arzulardan arzular doğulur. Bu arzuların gerçəkləşməsi böyüyən körpənin yaşadığı mühitdən çox asılı olur. Arzularını öz gücünə və bacarığına görə tənzimləyən hər kəs sırası ilə bu arzuları gerçəkləşdirir. Ancaq arzuların gerçəkləşməsi üçün insan gərək qərarlı ola. Yəni özünəgüvənli şəkildə arzularını növbə ilə həyata keçirə. Belə bir məsəl var: "Haraya gedəcəyini bilməyən gəmiyə ruzgar kömək edə bilməz!"

**Səbuhi Nəbiyev kimdir**

İlk növbədə Səbuhi Nəbiyevi oxucularımıza tanıtmaq istərdik. Səbuhi Nəbiyev 1980-ci ildə Qəbələ rayonunun Kötüklü kəndində anadan olmuşdur. 1997-ci ilə həmin kənd məktəbini bitirərək Gəncə Dövlət Universitetinə daxil olmuşdur. 2001-ci ildə ali məktəbi bitirərək doğma kəndinə qayıtmış, 2001 - 2002-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra Kötüklü kənd məktəbində ixtisası üzrə riyaziyyat və informatika müəllimi kimi fəaliyyət göstərmişdir.

2011 - 2018-ci illərdə Mıxlıqovaq kəndində inzibati ərazi dairəsi üzrə nümayəndə vəzifəsində çalışmışdır.

2018 - 2021-ci illərdə "Prior Seasing" şirkətində "leasing və kredit" mütəxəssisi kimi əmək fəaliyyətini davam etdirmişdir.

2023-cü ildən Qəbələ Dövlət Peşə Təhsili Müəssisəsində arıçı ixtisası üzrə müəllim kimi fəaliyyət göstərir.

**Arı və arıçılıq**

Arılar uçan həşəratlar ailəsinə aiddir. Dünyada 20 mindən artıq arı növü vardır. Antarktidadan başqa dünyanın hər yerində arılar yaşayır. Arılar pərdəqanadlılar dəstəsinin əsl arılar fəsiləsinə aiddirlər. Ana, erkək və işçi arılardan ibarət bal arısı ailəsi kaloniyalar halında yaşayırlar.




Arıların həyatı çox maraqlıdır. Bir kaloniya bir ana arı, yəni kraliça arı, yüzlərlə erkək arı və 10.000 - 80.000 arası işçi arıdan ibarətdir. Kraliça və işçi arılar dişidir.

Arıların ömrü qısa olur. İşçi arıların ömrü hava şəraitinə görə 2 - 3 həftədən bir aya qədər olur. Kraliça arının ömrü isə 3 - 4 il olur. Kraliça arılar arı südü ilə qidalanır. Erkək arılar bal hazırlamır, onların iynəsi belə olmur. Bir bal arısının sürəti (uçuşda) 20 - 25 kilometrdir.

Bir banka bal üçün 40.000 arının 6 milyon çiçəkdən şirə toplaması lazımdır. Bal arıları dəqiqədə təxminən 11 - 12 min dəfə qanad çırpırlar.

Bal arıları qonaqpərvər deyillər. Pətəyə və ya kaloniyaya daxil olan başqa arının sonu ölüm olur. Ana arı mayalandıqdan sonra sutkada 2.000 - 2.500-dək, mövsüm ərzində isə 200 minədək yumurta qoyur.

Arılar həyatda yaşayan zəhmətkeş canlılardır. Onların yetişdirdiyi məhsul isə öz təbii xüsusiyyətlərinə görə bir çox xəstəliklərin müalicəsi üçün əhəmiyyətlidir. Çiçəklərdən toplanan nektarlar dərdlərə dərman, məlhəmdir. Bal arılarının çiçəklərdən çəkdiyi B vitamini ilə zəngin, şirin və təbii qidadır.

**Arzumu, hobbimi?**

İnsan arzularına çatdıqca hobbiləri də, yəni öz maraq dünyasını da zənginləşdirmək və gerçəkləşdirmək istəyi ilə yaşayır. Səbuhi Nəbiyev də hələ körpəlikdən babasının arıçılıqla məşğul olduğunu görmüş, o arıların dünyasını ona sehr təsiri buraxmışdı. İllər keçdikcə babası Çərkəz kişinin sənətinə atası Tofiq Nəbiyevin də böyük maraq göstərdiyni hiss etmiş və arıçılıq peşəsinə qəlbində sevgi yaranmışdı. Göz önündə baba və atasının peşəkar arıçılığı bu sənətin sirlərini onun yaddaşına həkk edirdi.

Ali təhsil almaq, sevdiyi ixtisasa yiyələnmək arzusu ilə bərabər arıçılıqla məşğul olmaq həyatının ən vacib maraq dairəsinə çevrilmişdi.

Ali məktəbi bitirib müəllim kimi fəaliyyətə başladığı vaxtdan işdən sonra bu istəyini də gerçəkləşdirdi və arıçılığın sirlərini mükəmməl öyrəndi. Artıq 5 ildir ki, "Tofiqoğlu" arıçılıq təsərrüfatında çalışır. 2023-cü ildən etibarən Qəbələ Peşə Təhsili Müəssisəsində arıçılıqdan dərs deyir. Artıq 10 ildir ki, "Tofiqoğlu" arıçılıq təsərrüfatı müasir texnologiyalarla işləyir.

**Uğurlar, sevinclər**

Bu təsərrüfat dəfələrlə Türkiyədə festivallarda, konfranslarda iştirak etmiş, öz məhsullarını nümayiş etdirmişdir. Son 5 ildir ki, respublika üzrə keçirilən arıçılıq məhsullarının respublika satış yarmarkasında birinci yeri tutur. Həmçinin mükafatlara layiq görülür. Bu il 5 nominasiya üzrə keçirilən respublika üzrə yarışmada "Tofiqoğlu" arıçılıq təsərrüfatı birinci yeri tutmuşdur. Bu, ailənin ənənəvi peşəsinin davamısı olan Səbuhi Nəbiyevin uğurudur.

Arıçılıq peşəsini davam etdirmək, həm də aqroturizmi inkişaf etdirmək deməkdir. Axı bu təsərrüfatın il ərzində müxtəlif ölkələrdən gələn qonaqları daha çox olur. Həm ölkəmizin müxtəlif bölgələrindən, həm də başqa ölkələrdən gələn qonaqlar bu təsərrüfatı ziyarət edir, təbii və keyfiyyətli məhsullardan öz ailələri üçün alıb aparırlar. Bu isə arıçılıq təsərrüfatının məşsullarının daha da tanınması və müsabiqələrdə yer tutmasının başlıca şərhidir.

Artıq ailə peşəsinə ailənin gənc üzvü Ramil Nəbiyev də böyük maraq göstərir. Məktəbli olmasına baxmayaraq o, Zaqatalada keçirilən Beynəlxalq Arıçılıq Müsabiqəsində ikinci yeri tutmuşdur. Ramil asudə vaxtını tamamilə arıçılığa həsr edir. Bu isə babanın arıçılıq peşəsinin nəsillərə ərməğan olunmasının bariz nümunəsidir.

Həyat üçün, sağlamlıq üçün müstəsna əhəmiyyəti olan arıçılığı inkişaf etdirmək təqdirəlayiqdir. Bu işdə sizlərə uğurlar diləyirik!

**Bibixanım İSAYEVA.**